*Qədim Diyar*
May 2026, Cild. 8, Say 5, s. 44–52
*Ancient Land*
May 2026, Vol. 8, Issue 5, pp. 44–52
DOI: https://doi.org/10.36719/2706-6185/60/44-52

# Şərqdə sabitlik axtarışı: Helmut Kol Kanslerliyi dövründə Almaniyanın Rusiya strategiyası və Avro-Atlantika Təhlükəsizlik Sistemində yeni arxitektura (1991–1998)

**Cavid Məmmədli**

***Xülasə.*** *Bu məqalə Helmut Kol kanslerliyi dövründə (1991–1998) Almaniyanın Rusiya siyasətini Avro-Atlantik təhlükəsizlik sisteminin formalaşması kontekstində təhlil edir. Soyuq müharibənin başa çatması və SSRİ-nin dağılması ilə Avropa təhlükəsizlik arxitekturasında meydana çıxan yeni reallıqlar Berlin üçün həm strateji imkanlar, həm də risklər yaratdı. H.Kol hökuməti Rusiyanı Avropada davamlı sülhün təmin olunması baxımından əsas geosiyasi aktor kimi qəbul edir və Rusiya ilə konstruktiv tərəfdaşlığın qorunmasını Almaniyanın milli və kollektiv təhlükəsizlik maraqlarının tərkib hissəsi hesab edirdi. NATO-nun genişlənməsi məsələsi Almaniya-Rusiya münasibətlərində ən həssas mövzulardan biri olmuş, Almaniya həm Rusiya ilə dialoqu qorumağa, həm də Şərqi Avropanın təhlükəsizlik tələblərini qarşılamağa çalışmışdır. Məqalədə NATO–Rusiya Əməkdaşlıq Aktının imzalanması, Balkan münaqişələri və Rusiya daxilində siyasi qeyri-sabitlik kimi faktorların Kolun strategiyasına təsiri geniş şəkildə şərh edilir. Tədqiqat göstərir ki, H. Kolun Rusiya siyasəti Avropa təhlükəsizliyinin balanslaşdırılmış modelinə əsaslanırdı: nə Rusiyanın təcridi, nə də onun həddindən artıq güclənməsi AFR üçün məqbul hesab olunurdu. Bununla belə, Rusiyanın daxili siyasi qeyri-sabitliyi, NATO genişlənməsi səbəbindən artan etimadsızlıq və enerji asılılığının dərinləşməsi H.Kolun strategiyasının tam həyata keçməsinə mane oldu. Məqalə nəticə olaraq göstərir ki, H.Kol dövrü Almaniya–Rusiya münasibətlərinin müasir mərhələsinin əsas çərçivələrini formalaşdırmışdır.*

***Açar sözlər:*** *Helmut Kol, Almaniya xarici siyasəti, Avro-Atlantik təhlükəsizlik sistemi, NATO genişlənməsi, Almaniya–Rusiya münasibətləri, postsovet məkanı, Avropa təhlükəsizliyi*

---

Bakı Dövlət Universiteti, doktorant, Bakı, Azerbaijan
E-poçt: mmmdlicavid1@gmail.com
Daxil oldu: 29 Dekabr 2025; Qəbul edildi: 12 Fevral 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# In Search of Stability in the East: Germany's Russia Strategy and the New Architecture of the Euro-Atlantic Security System During Helmut Kohl's Chancellorship (1991–1998)

**Javid Mammadli**

***Abstract.*** *This article analyzes Germany's Russia policy during Helmut Kohl's chancellorship (1991–1998) within the context of the emerging Euro-Atlantic security system. The end of the Cold War and the dissolution of the USSR created new realities in the European security architecture, presenting Berlin with both strategic opportunities and risks. The Kohl government viewed Russia as a key geopolitical actor for ensuring lasting peace in Europe and considered the maintenance of a constructive partnership with Moscow an integral part of Germany's national and collective security interests. The article examines Kohl's adaptation of the Ostpolitik tradition to the post-Soviet context, exploring the political, economic, and security dimensions of Germany–Russia relations. NATO enlargement emerged as one of the most sensitive issues on the Berlin–Moscow axis, with Germany seeking to maintain dialogue with Russia while addressing the security needs of Eastern Europe. The study discusses the impact of the NATO–Russia Founding Act, energy dependency, increasing German investments, Balkan conflicts, and Russia's domestic political instability on Kohl's strategy. The research shows that Kohl's Russia policy was based on a balanced European security model, avoiding both Russia's isolation and excessive empowerment. Nevertheless, Moscow's internal instability, growing mistrust due to NATO enlargement, and deepening energy dependence hindered the full realization of his strategy. The article concludes that Kohl's chancellorship laid the foundational framework for the contemporary phase of Germany–Russia relations.*

***Keywords:*** *Helmut Kohl, Russia policy, German foreign policy, Euro-Atlantic security system, NATO enlargement, Ostpolitik, energy security, Germany–Russia relations, post-Soviet space, European security*

---

Baku State University, PhD studen, Baku, Azerbaijan
E-mail: mmmdlicavid1@gmail.com
Received: 29 December 2025; Accepted: 12 February 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

*"Ruslar və almanlar Avropanın iki ən böyük millətidir. Onların münasibətləri bütün qitənin taleyi üçün həlledici əhəmiyyət kəsb edir." — Boris Yeltsin, aprel 1994*
*"Rusiya və Almaniya arasındakı münasibətlər bu gün gərginlikdən uzaq, etibarlı və dostanədir... Biz azad, demokratik və bazar iqtisadiyyatına yönəlmiş Rusiyanın sabit tərəfdaş olaraq qalacağına inanırıq." — Helmut Kol, mart 1993*

SSRİ-nin süqutu və Almaniyanın yenidən vahid dövlətə çevrilməsi Avropa geosiyasətində keyfiyyətcə yeni bir mühit yaratdı. Bu dövrdə AFR-in xarici siyasət kursunda Rusiyanın yeri həm hüquqi varislik, həm də strateji tərəfdaşlıq prizmasından müəyyən edilirdi. Almaniya, 26 dekabr 1991-ci ildə Rusiya Federasiyasının beynəlxalq statusunu tanıyan ilk Qərb dövləti olmaqla, tərəflər arasındakı münasibətləri "Böyük müqavilə" və qoşunların çıxarılmasına dair sazişlər kimi fundamental hüquqi bazaya oturtdu. Tədqiqatçı N. Pavlovun qeyd etdiyi kimi, 1990-cı illərin əvvəlləri hər iki dövlət üçün "adaptasiya fazası" kimi xarakterizə olunur ki, burada əsas hədəf

Rusiyada baş verə biləcək geosiyasi geriləmənin qarşısını almaq və Rusiyanı Qərb təhlükəsizlik sisteminə inteqrasiya etmək idi. H. Kolun Rusiya strategiyası böyük ölçüdə Almaniyanın birləşməsində göstərilən dəstəyə görə duyulan "minnətdarlıq hissi" üzərində qurulmuşdu. Postsovet dövründə AFR-in Rusiya strategiyasının prioritetləri təkcə praqmatik maraqlarla deyil, həm də mənəvi-siyasi amillərlə şərtlənirdi. Bu kontekstdə Almaniyanın Rusiya kursu "təcrid deyil, cəlb etmə" prinsipi üzərində qurulmuşdu. Burada əsas məqsəd nüvə arsenalına sahib olan Rusiyanın daxili xaosunu önləmək, dövlət sabitliyini təmin etmək və onu tədricən Avro-Atlantik sisteminin norma və standartlarına adaptasiya etməkdən ibarət idi. Almaniya bir tərəfdən Rusiyanın Avropadakı "vəkili" rolunda çıxış edərkən, digər tərəfdən postsovet məkanında Rusiyanın təsirini balanslaşdırmaq üçün "regional əks-tarazlıqlar" yaratmağa çalışırdı.

## Tədqiqat

Almaniyanın yenidən birləşməsi prosesindən sonra Bonn administrasiyası coğrafi amilləri və regional təhlükəsizlik maraqlarını rəhbər tutaraq, postsovet məkanında sabitliyin təmin olunması istiqamətində fəal xarici siyasət kursu yürütmüşdür. "İki üstəgəl dörd" sazişinin Rusiya tərəfindən ratifikasiyası, Rusiya ilə iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açmışdır. Xüsusilə 1991-ci ilin avqust hadisələrindən sonra Boris Yeltsinin rəhbərliyi altında başlayan demokratikləşmə və bazar iqtisadiyyatına keçid meyilləri Almaniyanın bu ölkəyə dəstəyini daha da stimullaşdırmışdır. Federal Kansler Helmut Kol Qərb dünyasında Rusiyanın maliyyə maraqlarının əsas himayədarı kimi çıxış edərək, beynəlxalq arenada, xüsusən də G-7 formatında Rusiyaya genişmiqyaslı maliyyə yardımlarının ayrılması üçün diplomatik təzyiqləri artırmışdır. Almaniyanın bu dövrdəki fəallığı onun Avropa və Rusiya arasında körpü rolu oynamaq strateji niyyətini bir daha təsdiq etmişdir (Bierling 2014, s. 294).

### *Yenidən Birləşmədən sonra Helmut Kolun Rusiya siyasəti: Romantik Mərhələ*

Almaniyanın dövlət müstəqilliyinin bərpası ərəfəsində Helmut Kolun xarici siyasət doktrinası "inteqrasiya" və "çoxşaxəli əməkdaşlıq" prinsipləri üzərində qurulmuşdu. H.Kolun mövqeyinə görə, Avropanın yeni təhlükəsizlik arxitekturası XIX əsrin qeyri-sabit güc balansına və rəqabətinə qayıdışı istisna etməli idi. SSRİ-nin süqutundan sonrakı dövr Almaniya üçün xarici siyasətdə yeni bir dövrün başlanğıcı idi. Xarici İşlər Nazirliyində rəhbərliyin dəyişməsi tam da beynəlxalq güclər müvazinətinin yenidən qurulduğu və birləşmiş Almaniyanın özünə yeni yer axtardığı vaxta təsadüf etdi. Bu keçid mərhələsində Rusiya ilə münasibətlərin hansı istiqamətdə inkişaf edəcəyi ən vacib suallardan biri idi. Kansler Helmut Kol və komandası yaranmış yeni reallığı nəzərə alaraq 1992-ci ilin sonunda Moskvaya səfər etməyi qərara aldılar, çünki Rusiya artıq parçalanmış SSRİ-nin yeganə rəsmi varisi hesab olunurdu. Bu diplomatik gedişlər sadəcə rəsmi görüşlər deyil, həm də onilliklər boyu davam edən köhnə münasibətlərin köklü şəkildə dəyişdirilməsi cəhdi idi. Almaniya tərəfi bu prosesdə Rusiyanın artıq əvvəlki supergüc statusunu itirdiyini, nüvə silahına rəğmən daha çox Qərbin tərəfdaşına çevrilmiş bir "orta güc" olduğunu dərk edirdi. Lakin Moskvadakı köhnə bürokratik aparat hələ də Almaniyanı istədiyi kimi yönləndirə biləcəyi bir subyekt kimi görməyə davam edirdi və birləşmə prosesinə görə Almaniyanın onlara borclu olduğu düşüncəsi ilə həddindən artıq maliyyə dəstəyi tələb edirdi. AFR isə bu istəklərin reallıqdan uzaq olduğunu və Almaniyanın öz daxili maliyyə yükünün ağır olduğunu yaxşı bilirdi. Bu çətin şəraitdə Almaniyanın əsas məqsədi həm Rusiya ilə yeni əməkdaşlıq yolları tapmaq, həm də bu yaxınlaşmanın Polşa və Baltikyanı ölkələr kimi digər qonşularda qorxu yaratmamasın təmin etmək idi. Alman diplomatlar Rusiya ilə qurulacaq yaxşı münasibətləri bütün Avropanın sabitliyi və demokratikləşməsi üçün vacib bir amil kimi görürdülər. Həmin vaxt Boris Yeltsin hakimiyyətinin dəstəklənməsi həm də Avropanı gözlənilən böyük etnik və ərazi münaqişələrindən qorumaq strategiyasının bir hissəsi idi. Qısacası, Almaniya Rusiya ilə münasibətləri gələcəkdə Fransa və ya ABŞ ilə olan səviyyəyə çatdırmağı hədəfləyərək, həm öz milli

maraqlarını qorumağa, həm də qitənin təhlükəsizliyini təmin etməyə çalışırdı (Bierling, 2014, s. 423–425).

Almaniyanın birləşməsindən sonra AFR-in xarici siyasətində həllini gözləyən ən mühüm məsələ ölkə ərazisindəki sovet hərbi mövcudluğuna son qoymaq idi. Almaniya rəsmi olaraq birləşsə də, ölkənin şərq hissəsində hələ də 400.000 sovet əsgəri, həmçinin 125.000-ə yaxın ağır silah və digər hərbi texnika mövcudluğu suverenliyin tam bərpası yolunda ciddi maneə təşkil edirdi. Bu problemin siyasi həlli "İki üstəgəl dörd" müqaviləsi ilə hüquqi müstəviyə keçsə də, prosesin icrası birbaşa maliyyə amillərindən asılı idi. Belə ki, Mixail Qorbaçovun qoşunların çıxarılmasına razılıq verməsi Helmut Kolun təklif etdiyi 15 milyard markalıq maliyyə yardımı sayəsində mümkün olmuşdur. Bu vəsait təkcə logistik xərcləri deyil, həm də vətənə dönən sovet hərbçiləri üçün sosial təminat layihələrini əhatə edirdi. Bu prosesin hüquqi detalları 1990-cı ilin oktyabr ayının əvvəlində imzalanmış Keçid dövrü və Qoşunların çıxarılması haqqında müqavilələrlə tənzimləndi. Almaniyanın birləşmə prosesi beynəlxalq hüquqi müstəvidə rəvan irəliləsə də, SSRİ daxilindəki iqtisadi tənəzzül bu gedişata ciddi risklər yaradırdı. Mixail Qorbaçovun daxili siyasi mövqeyinin zəifləməsi AFR üçün strateji təhlükə idi.

Buna görə də, AFR həm humanitar yardımlar, həm də diplomatik manevrlərlə sovet liderinin hakimiyyətini qorumağa çalışırdı. Helmut Kolun bu dəstək siyasətinin arxasında kifayət qədər praqmatik maraqlar dayanırdı. Kansler yaxşı dərk edirdi ki, SSRİ-də baş verə biləcək hər hansı bir destabilizasiya Almaniyanın gələcək taleyi üçün həlledici olan sənədlərin, xüsusilə də "İki plyus dörd" müqaviləsinin Ali Sovet tərəfindən ratifikasiyasını sual altına qoya bilərdi. Almaniya rəhbərliyi 1991-ci ilin martına qədər olan həssas dönəmdə M. Qorbaçovun hakimiyyətini uzatmağı öz milli təhlükəsizlik prioritetinə çevirmişdi. 1991-ci ilin avqustunda baş verən uğursuz dövlət çevrilişi cəhdi Almaniya üçün ciddi təşviş mənbəyinə çevrilmişdi. Xüsusilə, M. Qorbaçovun əleyhdarlarının onu ADR-i "satmaqda" ittiham etməsi, hakimiyyətə gələ biləcək yeni qüvvələrin birləşmə müqavilələrinə sadiq qalmayacağı riskini yaradırdı. Baxmayaraq ki, bu qiyam qısa müddətdə iflasa uğradı, bu hadisə M.Qorbaçovun rəhbərliyinin süqutunun başlanğıcı oldu. Siyasi güc mərkəzinin Boris Yeltsinə keçməsi və 1991-ci ilin dekabrında Rusiya Federasiyasının öz suverenliyini elan etməsi ilə SSRİ-nin mövcudluğuna son qoyuldu. Bierling yekun olaraq bildirir ki, 31 dekabr 1991-ci ildə SSRİ tarixdən silindi və Rusiya onun beynəlxalq hüquqi varisi kimi çıxış etməyə başladı (Bierling, 2014, s. 60–61).

M.Qorbaçovun hakimiyyətinin son illərində olduğu kimi, B.Yeltsin prezidentliyinin başlanğıcında da AFR Qərbdə Rusiyanın dinc transformasiyasında və sabitliyində ən çox marağı olan ölkə idi. Bu maraq həm coğrafi yaxınlıq və iqtisadi asılılıqdan, həm də Şərqi Almaniyadakı rus əsgərlərinin mövcudluğundan qaynaqlanırdı. B.Yeltsin ilkin olaraq bazar iqtisadiyyatı və demokratiya istiqamətində addımlar ataraq bu gözləntiləri doğrultdu; həmçinin, Almaniyadakı cinayət təqibindən Moskvaya qaçmış keçmiş ADR rəhbəri Erix Honekeri Almaniyaya təhvil verdi. Buna görə də, H.Kol Qərb tərəfdaşlarını rus prezidentinə güzəştlər etməyə çağırırdı. 1992–1994-cü illərdə Rusiyaya yardım məsələsi G7 sammitlərinin və ikitərəfli görüşlərin əsas mövzusuna çevrildi. 1 sentyabr 1992-ci ildə H.Kol G7-nin B.Yeltsinə dəstək məqsədilə 24 milyard dollarlıq yardım paketini təqdim etdi, bir il sonra isə Tokio sammitində Almaniya və ABŞ-nin təzyiqi ilə 43 milyard dollarlıq proqram təklif olundu. Lakin bu vəsaitlərin böyük hissəsi köhnə vədlərdən və BVF (İMF) fondlarından ibarət idi və Rusiyadakı qarışıqlıq səbəbindən tam ödənilmədi. 1992-ci ilin dekabrındakı səfər zamanı H.Kol ikitərəfli yardımların qarşılığında rus qoşunlarının Almaniyadan planlaşdırılandan dörd ay əvvəl (avqust 1994-cü ilə qədər) çıxarılmasına nail oldu.

H. Kol bu yüksək maliyyə yardımlarını 1993-cü ildə belə əsaslandırırdı: "Əgər Yeltsin uğur qazanmasa, bu bizə daha baha başa gələcək". Paralel olaraq, AFR rus sahibkar və məmurlarının hüquq və ekologiya sahəsində təlimlərinə, həmçinin reaktor təhlükəsizliyi və tərksilah proseslərinə maliyyə dəstəyi verirdi. Nəhayət, Almaniya NATO və Rusiya arasında institusional əlaqələrin

qurulmasını müdafiə etdi ki, bu da Rusiyanın 1991-ci ildə Şimali Atlantik Əməkdaşlıq Şurasına (NACC) və 1994-cü ildə "Sülh Naminə Tərəfdaşlıq" (SNT) proqramına qəbulu ilə nəticələndi (Krumm və b., 2012).

Tədqiqatçı Con Lau qeyd edir ki Helmut Kol diplomatiyasının ən uğurlu tərəflərindən biri, onun post-sovet keçidi dövründə Rusiya və ABŞ qurduğu balanslaşdırılmış münasibətlər idi. M. Qorbaçov və B. Yeltsin arasındakı daxili hakimiyyət mübarizəsi fonunda H.Kol, hər iki liderlə praqmatik təmaslarını qoruyub saxlaya bildi. Eyni çevikliyi o, ABŞ ilə münasibətlərdə də nümayiş etdirdi; seçkilərdə C. Buşu dəstəkləməsinə rəğmən, qısa müddətdə Bill Klintonla "strateji tandem" yaratmağa nail oldu. Almaniya və ABŞ-nin bu dövrdəki birgə fəaliyyəti keçmiş SSRİ coğrafiyasında nüvə təhlükəsizliyinin təmin olunması və Rusiyanın xarici borclarının restrukturizasiyası (Paris Klubu vasitəsilə) məsələlərində həlledici rol oynadı. Xüsusilə Bundesverin ehtiyatlarından Rusiya şəhərlərinə göndərilən humanitar yardımlar, iki ölkə arasındakı tarixi travmaların (II Dünya müharibəsi irsi) yumşaldılmasına xidmət edən mühüm psixoloji amil idi. Kansler H.Kolun Rusiya strategiyasının mərkəzində həm də bu ölkədə "Hüquqi dövlət" modelinin formalaşdırılması dayanırdı. Almaniya tərəfi Rusiyaya idarəçilik və məhkəmə sistemində öz institusional təcrübəsini təklif etməklə, Moskvanın Qərb dəyərlər sisteminə inteqrasiyasını sürətləndirməyə çalışırdı. Bu siyasətin bariz nümunəsi kimi, H.Kolun bir çox Avropa dövlətinin etirazına və Rusiyanın Çeçenistandakı hərbi müdaxilələrinə baxmayaraq, Rusiyanın 1996-cı ildə Avropa Şurasına üzv qəbul edilməsini fəal şəkildə dəstəkləməsini göstərmək olar. Bu addım, H.Kolun Rusiyanı təcrid etmək deyil, onu beynəlxalq institutlar daxilində "tərbiyə etmək" və sabitləşdirmək kursuna sadiqliyini sübut edirdi (Lough, 2021, s. 115).

SSRİ-nin süqutundan sonrakı dövr AFR və Rusiya arasında münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsi üçün əlverişli tarixi şərait yaratdı. 1990-cı illərin əvvəllərində Andrey Kozırevin rəhbərlik etdiyi Rusiya diplomatiyası M.Qorbaçovun "Yeni Siyasi Təfəkkür" xəttini davam etdirərək, Qərblə qarşıdurmadan imtina edib tərəfdaşlıq modelini seçdi. Prezident Boris Yeltsinin Rusiyanın strateji hədəfinin NATO-ya inteqrasiya və Qərblə "müttəfiqlik" olduğunu bəyan etməsi, iki dövlət arasındakı tarixi inamsızlığın aradan qaldırılmasında mühüm rol oynadı. Bu dövrdə Rusiya qlobal liderlik iddialarından geri çəkilərək diqqətini daxili islahatlara yönəltdi və öz qoşunlarını Almaniyadan çıxarmaqla Avropada yeni təhlükəsizlik mühitinin formalaşmasına töhfə verdi. Rusiyanın bu dövr daxili siyasətinin ana xəttini liberal demokratik dəyərlərin mənimsənilməsi, hüququn aliliyi və bazar iqtisadiyyatına keçid təşkil edirdi. Almaniya bu transformasiya prosesində Rusiyanın ən yaxın Avropa tərəfdaşı kimi çıxış etdi (Adomeit, 2020, s. 276–292).

Helmut Kolun Moskvaya reallaşdırdığı ilk rəsmi səfər həm alman, həm də rus tərəfi üçün böyük ümidlərlə yadda qaldı. Bu səfər zamanı kansler, Boris Yeltsinin ölkədəki mühafizəkar və islahat əleyhdarı qüvvələrə qarşı qətiyyətli mübarizə apardığına və Rusiyanın demokratikləşmə yolundan dönməyəcəyinə şəxsən əmin oldu. İki lider arasında yaranan səmimi münasibət, xüsusilə Volqa sahilindəki bağ evində keçirilən qeyri-rəsmi görüşlər sonradan "sauna diplomatiyası" adlandırılan yaxınlığın əsasını qoydu. Almaniya üçün bu səfərin ən böyük strateji uğurlarından biri Şərqi Almaniyada qalan Rusiya hərbi hissələrinin nəzərdə tutulan vaxtdan daha tez çıxarılmasına dair alınan vəd oldu; çünki xarici qoşunlar ölkə torpaqlarında qaldığı müddətdə Almaniyanın tam suverenliyindən danışmaq mümkün deyildi. Eyni zamanda, Rusiyanın Balkanlardakı münaqişələrin həllində Qərblə birlikdə hərəkət etmək istəyi Avropanın gələcək təhlükəsizlik arxitekturası üçün ümidverici bir addım oldu (Presse-und Informationsamt der Bundesregierung. (1992, 14–16. Dezember). Besuch des Bundeskanzlers in der Russischen Föderation vom 14. bis 16. Dezember 1992. Bulletin der Bundesregierung).

***Rusiyanın Qərbdəki ən vacib müdafiəçisi, 1992–1998***

1990-cı illərin ortalarında Rusiyada baş verən daxili siyasi hadisələr Helmut Kolun Rusiya strategiyasını ciddi sınaq qarşısında qoymuşdu. 1993-cü ilin oktyabrında Moskvanın mərkəzində parlamentin atəşə tutulması Rusiyada avtoritar meyllərin güclənməsinə yol açsa da, H.Kol administrasiyası bunu "sabitliyin qorunması üçün zəruri addım" kimi qiymətləndirərək B.Yeltsinə siyasi dəstək verməyə davam etdi. Çeçenistandakı hərbi müdaxilə və mülki əhali arasındakı böyük itkilər Almaniya hökuməti daxilində müəyyən fikir ayrılıqları yaratsa da, rəsmi AFR strateji səbir nümayiş etdirirdi. O dövrün Müdafiə naziri Folker Rühenin kəskin etirazlarına və Rusiya tərəfini beynəlxalq platformalardan kənarlaşdırmaq cəhdlərinə baxmayaraq, Kansler H.Kol və xarici işlər naziri K.Kinkel daha mühafizəkar mövqedən çıxış edirdilər. Onlar Çeçenistan məsələsini Rusiyanın "daxili işi" kimi xarakterizə edir və Rusiyanın parçalanmasının ("domino effekti") Avro-Atlantika təhlükəsizliyi üçün daha böyük təhdid olduğunu əsas gətirirdilər. Beləliklə, Kol hökuməti üçün Rusiyanın ərazi bütövlüyü və mərkəzi hakimiyyətin sabitliyi, insan haqları və demokratik prinsiplərdən daha üstün bir geosiyasi prioritet təşkil edirdi (Lough, 2021, s. 116).

1990-cı illərin əvvəllərində Almaniya və Rusiya arasında qurulan yeni münasibətlər sistemi hər iki tərəf üçün strateji bir tərəfdaşlıq platformasına çevrilmişdi. Birləşmiş Almaniya, Qərb dünyasında, xüsusən də Avropa Birliyi və NATO daxilində Rusiyanın ən sadiq və nüfuzlu himayədarı kimi çıxış edirdi. Bu dövrdə AFR-in əsas məqsədi Rusiyanı beynəlxalq aləmdən təcrid etmək deyil, əksinə, onu yeni yaranan Avropa sülh nizamına inteqrasiya etmək idi. Kansler Helmut Kol şəxsən inanırdı ki, Rusiyanın bir kənara itələnməsi Avropada gələcək sabitlik üçün təhlükə yarada bilər. H.Kolun bu qədər anlayışlı yanaşmasının bir səbəbi də Almaniyanın özünün şərq hissəsində apardığı sosial-iqtisadi islahatlar və bu keçid dövrünün çətinliklərini yaxından tanıması idi. Beləliklə, Almaniya faktiki olaraq Moskva ilə Brüssel və Vaşinqtonla arasında əvəzolunmaz bir körpü rolunu oynamağa başladı (Stent, 2000, s. 858–860).

Maliyyə yardımları məsələsində Almaniya hökuməti bütün Qərb dünyasını Rusiyanın xeyrinə hərəkətə gətirən əsas mühərrik idi. 1992 və 1993-cü illərdə G7 ölkələrinin ayırdığı on milyardlarla dollarlıq yardım paketləri məhz AFR-in israrlı tələbləri nəticəsində mümkün olmuşdu. Boris Yeltsin daxili siyasətdə ciddi iqtisadi böhran və islahatlara qarşı müqavimətlə üzləşdiyi bir vaxtda, H.Kol onun beynəlxalq arenada ən böyük dayaq nöqtəsi idi. Almaniya təkcə yeni kreditlərin verilməsi deyil, həm də Rusiyanın köhnə sovet borclarının silinməsi və ya təxirə salınması üçün Paris Klubu çərçivəsində gərgin diplomatik mübarizə aparırdı (Stent, 1999, s. 293–294).

1990-cı illərin ortalarından etibarən Boris Yeltsin islahatçı kursundan uzaqlaşaraq daha sərt və anti-Qərb ritorikasına meyillənməyə başladı. Müəllifin təhlilinə görə, Rusiyanın iqtisadi tənəzzülü və beynəlxalq nüfuzunun zəifləməsi fonunda B.Yeltsin daxili auditoriyanı birləşdirmək üçün NATO-nun şərqə doğru genişlənməsinə qarşı kəskin çıxışlar edir, Avropanı "soyuq sülh" təhlükəsi ilə xəbərdar edirdi. Qərb ölkələri, xüsusilə də Almaniya, Rusiyanı təcrid etmək əvəzinə, onu beynəlxalq sistemə inteqrasiya etmək üçün bütün diplomatik kanalları açıq saxlayırdı. Almaniya hökuməti üçün B.Yeltsin hələ də "demokratik Rusiya" üçün yeganə ümid mənbəyi hesab olunurdu. AFR bu dəstəyi nümayiş etdirmək üçün hətta B.Yeltsinin daxili siyasi böhranlarda güc tətbiq etməsinə və Çeçenistandakı qanlı müharibəyə qarşı kifayət qədər ehtiyatlı və yumşaq tənqidi mövqe nümayiş etdirirdi. Almaniyanın vasitəçilik səyləri nəticəsində 1997-ci ildə "NATO-Rusiya Təsis Aktı" imzalandı və Rusiya G7 qrupuna daxil edilərək qurum G8 formatına çevrildi. H.Kolun Rusiyaya dəstəyi bəzən dövlətlərarası münasibətlərin sərhədlərini aşaraq şəxsi dostluq və hətta gizli siyasi dəstək müstəvisinə keçirdi. 1996-cı il prezident seçkilərində Yeltsinin vəziyyəti ağır idi; xalqın narazılığı və korrupsiya ittihamları fonunda kommunistlərin hakimiyyətə qayıtmaq ehtimalı Almaniyanı ciddi narahat edirdi. H.Kol bunu həm də Almaniyanın taleyi üçün bir sınaq hesab edirdi. Bu səbəbdən AFR, Çeçenistan müharibəsindəki insan haqları pozuntularına göz yumaraq, Yeltsinin

hakimiyyətdə qalması üçün BVF vasitəsilə milyardlarla dollarlıq kreditin ayrılmasını təmin etdi. Bu, faktiki olaraq bir xarici dövlətin başqa bir ölkədəki seçki prosesinə dolayı, lakin həlledici müdaxiləsi idi (Bierling, 1999, s. 62–63).

Siyasi müstəvidə də Almaniya Rusiyanın beynəlxalq nüfuzunu bərpa etmək üçün mühüm addımlar atdı. Rusiyanın G7-yə tamhüquqlu üzv kimi qəbul edilərək qrupun G8-ə çevrilməsi, həmçinin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına daxil edilməsi birbaşa Almaniyanın vasitəçilik səylərinin nəticəsi idi. Lakin 1997-ci ildə NATO-nun şərqə doğru genişlənmə qərarı bu münasibətləri sınağa çəkdi. H.Kol, həm polyakların və çexlərin təhlükəsizlik qayğılarını anlayır, həm də Rusiyanın bu genişlənməni özünə təhdid kimi görməsindən doğan narahatlığı yumşaltmağa çalışırdı. Məhz alman diplomatların təşəbbüsü ilə yaradılan NATO-Rusiya Şurası bu gərginliyi müvəqqəti olaraq aradan qaldıra bildi. Lakin 1999-cu ildə Balkanlarda baş verən Kosovo müharibəsi və NATO-nun Serbiyaya müdaxiləsi bu "qızıl dövrün" sonunun gəldiyini göstərdi. Bu yeni şəraitdə Rusiya artıq Qərblə olan münasibətlərinə daha şübhəli və tənqidi yanaşmağa başladı ki, bu da Almaniyanın növbəti hökuməti üçün tamamilə fərqli bir geosiyasi mənzərə yaratdı (Bierling, 1999, s. 128).

Helmut Kol kanslerliyi dövründə imzalanmış koalisiya müqaviləsində Rusiyaya yer verilməsi H.Kolun Avropa təhlükəsizliyin təmin edilməsində Rusiyaya verdiyi önəmin bariz nümunəsidir. Müqavilədə qeyd olunur ki, Rusiyanı təcrid etmədən AFR NATO-nu genişləndirilməsini dəstəkləyir. Almaniya rəhbərliyi anlayırdı ki, Avropada yeni bölücü xətlərinin yaranmaması üçün Rusiya ilə intensiv tərəfdaşlıq qurulmalıdır. Burada ATƏM (ATƏT) həm Rusiya ilə dialoq, həm də ümumi Avropa təhlükəsizliyi üçün yumşaq güc aləti kimi mühüm mexanizm kimi dəyərləndirilirdi (CDU/CSU və FDP, 1994. s. 48).

Almaniyanın strateji hədəflərini daha aydın görmək üçün kansler Helmut Kolun 1996-cı ildə Münih Təhlükəsizlik Konfransındakı bəyanatlarına nəzər salmaq kifayətdir. O, həmin nitqində NATO-nun genişlənməsi ilə Rusiya ilə qurulacaq strateji tərəfdaşlıq arasında həssas tarazlığın vacibliyini belə ifadə etmişdi. "Biz NATO-nun genişlənməsi məsələsinə ehtiyatla və siyasi uzaqgörənliklə yanaşmalıyıq, çünki bu, həm Alyansın özü, həm də gələcək Avropanın təhlükəsizliyi üçün fundamental əhəmiyyət kəsb edən addımları ehtiva edir. Biz almanlar və avropalılar NATO-nun gələcəkdə sabit və fəaliyyət qabiliyyətli qalmasında əsaslı marağa sahibik. Bununla belə, Rusiya və Ukrayna ilə tərəfdaşlığa əsaslanan, dostluq münasibətləri inkişaf etdirməkdə də ən yüksək dərəcədə maraqlıyıq. Biz Rusiya və Ukraynanın tam başa düşülən təhlükəsizlik maraqlarını nəzərə almalıyıq" (Kohl, 1996).

Helmut Kolun 1996-cı il Münih Təhlükəsizlik Konfransındakı nitqi Almaniyanın Soyuq müharibədən sonrakı xarici siyasət strategiyasının fundamental prinsiplərini aydın şəkildə ortaya qoyur. Kol çıxışında NATO-nun şərqə doğru genişlənməsi prosesinə xüsusi ehtiyatla və siyasi uzaqgörənliklə yanaşmağın zəruriliyini vurğulayaraq, bu addımın həm Alyansın gələcəyi, həm də Avropanın ümumi təhlükəsizlik arxitekturası üçün həlledici əhəmiyyət daşıdığını qeyd edir. Almaniyanın NATO-nun fəaliyyət qabiliyyətinin qorunmasında maraqlı olduğunu bildirən kansler, eyni zamanda Rusiya və Ukrayna ilə tərəfdaşlığa əsaslanan dostluq münasibətlərinin qurulmasını strateji prioritet kimi təqdim edir. Helmut Kola görə, Avropada sabitlik yalnız Rusiya və Ukraynanın təhlükəsizlik maraqlarının nəzərə alınması şərtilə mümkündür. O, bu qədər əhəmiyyətli bir məsələnin Rusiya və ya ABŞ-də daxili siyasi çəkişmələrə və seçki kampaniyalarına alət edilməsinin gələcək proseslər üçün ciddi risklər yarada biləcəyi barədə xəbərdarlıq edir. H.Kol NATO və Rusiya arasında qurulacaq xüsusi münasibətlərin gələcək Avropa təhlükəsizlik sisteminin mərkəzi sütununa çevrilməsini arzulayır və Almaniya hökumətinin bu tərəfdaşlığı hər vəchlə dəstəklədiyini bildirir.

Post-sovet məkanında Almaniya, Rusiyanın Avropa təhlükəsizlik arxitekturasına inteqrasiyası prosesində özünü mərkəzi aktor kimi müəyyən etmiş, lakin bu fəaliyyətini transatlantik müttəfiqləri ilə koordinasiya etməyə üstünlük vermişdir. 1990-1998-ci illəri əhatə edən dövrdə Almaniyanın xarici siyasət kursu, yenidən birləşmədən sonra Rusiyanın Avropanın yeni siyasi-hüquqi arxitekturasına inteqrasiyası prosesində daşıdığı strateji məsuliyyət kontekstində inkişaf etmişdir. AFR bu transformasiya prosesini müstəqil şəkildə deyil, transatlantik müttəfiqləri, xüsusilə ABŞ, həmçinin NATO və Aİ ilə tam uzlaşma daxilində həyata keçirməyə üstünlük verirdi. SSRİ-nin süqutundan sonra həm Almaniya, həm də ABŞ, Rusiyanın imperialist ambisiyalardan uzaq, demokratik prinsiplərə və bazar iqtisadiyyatına əsaslanan bir dövlətə çevrilməsini fundamental prioritet kimi qəbul edirdi. Bununla belə, metodoloji yanaşmalarda müəyyən fərqliliklər mövcud idi; belə ki, Bill Klinton administrasiyası daxili siyasi islahatların xarici siyasəti şərtləndirdiyinə inanaraq neoliberal iqtisadi modelin tətbiqini ön plana çəkdiyi halda, Helmut Kol bu cür kəskin iqtisadi müdaxilələrə daha ehtiyatla yanaşaraq Rusiyanın daxili siyasi mühitinə təsir imkanlarını daha realist şəkildə dəyərləndirirdi.

Eyni zamanda, VMT-nin ləğvi nəticəsində Mərkəzi və Şərqi Avropada yaranmış təhlükəsizlik vakuumu həm Almaniya, həm də ABŞ üçün potensial risk faktoru hesab olunurdu. Region ölkələrinin mümkün ekspansionizm qorxusu onları Qərb təhlükəsizlik strukturlarına inteqrasiya olmağa sövq edirdi. Bu məqsədlə 1991-ci ildə Şimali Atlantik Əməkdaşlıq Şurası, 1994-cü ildə isə fərdi hərbi əməkdaşlığı nəzərdə tutan "Sülh Naminə Tərəfdaşlıq" proqramı təsis edildi. Yekun mərhələdə isə Almaniya və ABŞ, müvafiq kriteriyalara cavab verən keçmiş blok üzvlərinin NATO-ya tamhüquqlu qəbulu istiqamətində ortaq mövqe nümayiş etdirərək Avropa təhlükəsizlik sisteminin sərhədlərini şərqə doğru genişləndirmək strategiyasını mənimsədilər (Schmidt və b., 2007, s. 442–443).

### *Almaniyanın 1994-cü il "Ağ Kitab" təhlükəsizlik strategiyasında Rusiya Faktoru*

1994-cü ilin "Ağ Kitab" sənədini təhlil etdikdə aydın olur ki, Almaniyanın xarici və təhlükəsizlik siyasəti doktrinasında Rusiya Federasiyası sadəcə bir qonşu dövlət deyil, sistemin mərkəzi aktorlarından biri kimi müəyyən edilmişdir. Bizim qənaətimizə görə, sənədin 222 və 223-cü bəndləri Federal Hökumətin Rusiya ilə münasibətləri SSRİ dövründən miras qalmış strateji əməkdaşlıq modelinin məntiqi davamı kimi qəbul etdiyini nümayiş etdirir. Müəllif prizmasından yanaşdıqda, bu münasibətlərin bütün Avropanın sülh və sabitlik arxitekturası daxilində inkişaf etdirilməsi niyyəti sənədin ana xəttini təşkil edir. Bu çərçivədə Rusiya daxili siyasi və iqtisadi strukturunda uzunmüddətli və mürəkkəb bir transformasiya mərhələsində olan subyekt kimi xarakterizə edilir. Hesab edirik ki, Almaniya tərəfi Prezident Yeltsin tərəfindən həyata keçirilən demokratikləşmə və bazar iqtisadiyyatı islahatlarını, xüsusilə 12 dekabr 1993-cü il konstitusiyasını qitənin kollektiv təhlükəsizliyinin əsas təminatı kimi qiymətləndirirdi. Müşahidələrimiz göstərir ki, Rusiyanın daxili islahatlarının müvəffəqiyyəti qədər, onun ATƏM (indiki ATƏT) və digər beynəlxalq təsisatlar vasitəsilə "ümumavropa sisteminə" inteqrasiyası da AFR üçün fundamental hədəf olmuşdur. Sənədin məzmunundan belə bir nəticə çıxarmaq mümkündür ki, Rusiyanın siyasi, iqtisadi və hərbi baxımdan yenidən qurulması birbaşa Avropa dövlətlərinin strateji təhlükəsizlik maraqlarına xidmət edən amil kimi nəzərdən keçirilmişdir. Eyni zamanda, Almaniya hökuməti Rusiya ilə qurduğu yaxın dialoq modelini bütün post-sovet məkanı üçün bir etalon kimi tətbiq etməyi hədəfləsə də, Rusiyanı regiondakı mürəkkəb etnik və ərazi problemlərinin həllində əvəzedilməz diplomatik tərəfdaş qismində qəbul edirdi. Yekun təhlilimizə görə, sənəd Rusiyanın geosiyasi zəifləməsini deyil, əksinə, demokratik prinsiplərə sadiq, stabil bir Rusiya Federasiyasının Avropanın vahid təhlükəsizlik strukturuna tam hüquqlu üzv kimi inteqrasiyasını Almaniya siyasətinin strateji vektoru kimi təqdim edir. Yekun təhlilimizə görə, sənəd Rusiyanın geosiyasi zəifləməsini deyil, əksinə, demokratik prinsiplərə sadiq, stabil bir Rusiya Federasiyasının Avropanın vahid təhlükəsizlik strukturuna tam hüquqlu üzv kimi inteqrasiyasını Almaniya siyasətinin strateji vektoru kimi təqdim edir (Weißbuch 1994).

## Nəticə

Helmut Kolun 1991–1998-ci illərdə həyata keçirdiyi Rusiya siyasəti Şərqdə sabitliyin təmin olunması, Avropanın təhlükəsizlik arxitekturasının möhkəmləndirilməsi və Rusiya ilə dialoqun qorunması kimi strateji məqsədlərə əsaslanırdı. H. Kolun rəhbərliyi altında AFR-in "Şərq Siyasəti" Avro-Atlantik təhlükəsizlik sistemində mühüm rol oynamaqla yanaşı, Almaniyanın postsovet məkanında baş verən proseslərə aktiv təsir göstərməsinə imkan yaratdı. Bu siyasət həm də AFR-in sonrakı onilliklərdə Rusiya ilə münasibətləri formalaşdırmasında əsas baza funksiyasını yerinə yetirdi. H.Kolun Rusiya siyasəti, Almaniyanın Avropa və Avro-Atlantik təhlükəsizlik sistemindəki rolunu müəyyən edən mürəkkəb və çoxsəviyyəli bir siyasət nümunəsi idi. O, həm "romantik diplomatiya" (şəxsi əlaqələr və qarşılıqlı anlaşma), həm də strateji realizm (resurs məhdudiyyətləri, NATO genişlənməsi və regional təhlükəsizlik) arasında tarazlıq yaratmağa çalışmışdır. Bu siyasət Almaniyanın sonrakı Rusiya strategiyasına, eləcə də Avropa təhlükəsizliyinə uzunmüddətli təsir göstərmişdir.

## Ədəbiyyat

1. Adomeit, H. (2020). Bilanz der deutschen Russlandpolitik seit 1990. *SIRIUS: Zeitschrift für Strategische Analysen, 4*(3), 276–292. https://www.degruyterbrill.com/document/doi/10.1515/sirius-2020-3004/html
2. *Besuch des Bundeskanzlers in der Russischen Föderation vom 14. bis 16. Dezember 1992*. (1992). *Bulletin der Bundesregierung*. https://www.bundesregierung.de/breg-de/service/newsletter-und-abos/bulletin/besuch-des-bundeskanzlers-in-der-russischen-foederation-vom-14-bis-16-dezember-1992-791660
3. Bundesministerium der Verteidigung. (1994). *Weißbuch 1994: Zur Sicherheit der Bundesrepublik Deutschland und zur Lage und Zukunft der Bundeswehr*. Bundesministerium der Verteidigung.
4. Bierling, S. (1999). *Die Außenpolitik der Bundesrepublik Deutschland: Normen, Akteure, Entscheidungen*. De Gruyter Oldenbourg.
5. Bierling, S. (2014). *Vormacht wider Willen: Deutsche Außenpolitik von der Wiedervereinigung bis zur Gegenwart*. C.H. Beck.
6. CDU, CSU, & FDP. (1994). *Das vereinte Deutschland zukunftsfähig machen: Koalitionsvereinbarung für die 13. Wahlperiode des Deutschen Bundestages*. https://www.kas.de/documents/252038/253252/Koalitionsvertrag1994.pdf
7. Creuzberger, S. (2022). *Das deutsch-russische Jahrhundert: Geschichte einer besonderen Beziehung*. Rowohlt Hardcover.
8. Lough, J. (2021). *Germany's Russia problem: The struggle for balance in Europe's security architecture*. Manchester University Press.
9. Krumm, R., Medvedev, S., & Schröder, H. H. (2012). *Constructing identities in Europe: German and Russian perspectives*. Nomos Verlagsgesellschaft.
10. Kohl, H. (1996, February). Speech by Helmut Kohl at the 33rd Munich Conference on Security Policy. *Munich Security Conference*. https://securityconference.org/en/publications/books/selected-key-speeches-volume-i/1990-1999/speech-helmut-kohl-1996/
11. Stent, A. (1999). *Russia and Germany reborn: Unification, the Soviet collapse and the new Europe*. Princeton University Press.
12. Stent, A. (2000). *Rivalen des Jahrhunderts: Deutschland und Rußland im neuen Europa*. Propyläen.
13. Schwarz, H.-P. (2012). *Helmut Kohl: Eine politische Biographie*. Deutsche Verlags-Anstalt.
14. Schmidt, S., Hellmann, G., & Wolf, R. (2007). *Handbuch zur deutschen Außenpolitik*. VS Verlag für Sozialwissenschaften.